

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 sentyabr 2023-cü il №68 (2780) https://mod.gov.az Qiyməti 30 qəpik

## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

*Sentyabrın 1-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.*

Telefon söhbəti zamanı Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəkləməkdə davam etdiyi qondarma separatist rejim Ağdam-Xankəndi yolunun açılmasına qərəzli şəkildə imkan vermir və bu yoldan istifadənin qarşısının alınması üçün süni manеə və əngəllər yaradır, Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə bu yol ilə yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib. Azərbaycan Prezidenti qeyd edib ki, Ağdam-Xankəndi yolundan istifadədən bu formada imtina etmək siyasi manipulyasiyadır və həmin ərazidə guya humanitar, yaxud qida böhranının yaşandığını iddia etmək üçün məqsədyönlü yalandır. Ağdam-Xankəndi yolunun açılmasından sonra Azərbaycanın gömrük və sərhəd-nəzarət rejimi qaydaları tətbiq edilməklə Laçın-Xankəndi yolu açıla bilər. Prezident İlham Əliyev vurğulayıb ki, dövlətimiz tərəfindən separatizmin bütün təzahürləri qəbulolunmazdır.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan tərəfi ilə razılaşdırmadan Ermənistan tərəfindən Azərbaycanın "Laçın" sərhəd-keçid məntəqəsinin qarşısına humanitar təyinatlı olduğunu iddia etdikləri yüklərin gətirilməsi Azərbaycanın daxili işlərinə qarışmaqdır, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir. Azərbaycan Prezidenti Ermənistanın bu kimi siyasətinin sülh müqaviləsi üzrə danışıqlara ciddi zərər vurduğunu bildirib.

Dövlətimizin başçısı Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xətti ilə həmin əraziyə ərzaq yüklərinin çatdırıldığını, lakin qanunsuz separatist rejimin bundan imtina etdiyini bildirib.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağın erməni əhalisinin nümayəndələrinin reinteqrasiya məsələləri ilə bağlı müzakirələrin aparılması üçün paytaxt Bakıya və ölkəmizin digər şəhərlərinə dəvət edilməsinə baxmayaraq, onların bundan imtina etdiklərini xatırladıb.

ABŞ Dövlət katibi Antoni Blinken sülh müqaviləsinin imzalanması və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərini bundan sonra da davam etdirəcəklərini bildirib, Bakı ilə Xankəndi arasında birbaşa təmasları dəstəklədiklərini vurğulayıb.

## Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq böyük şəxsiyyət



Yaşanan və artıq tarixə qovuşmuş zaman, dövr, həmçinin mühüm hadisələr tarixi şəxsiyyətlərlə yadda qalır, onlarla xatırlanır, onlarla anılır. Əsrlərin sınağından çıxmış həqiqətdir ki, görkəmli şəxsiyyətlər tarixin gedişini dəyişə bilirlər. Ona görə də onlar yalnız əlamətdar günlərdə deyil, bütün zamanlarda xatırlanırlar. Tarixin müxtəlif dövrlərində bəşəriyyətdə dahi və əvəzolunmaz şəxsiyyətlər olublar. Belə şəxsiyyətlər isə bacarıqları, bilikləri ilə yaşadıqları zamana, əsrə sığmırlar. Özündən sonrakı zamanlarda da daim yaddaşlarda yaşayır, hörmətlə xatırlanır, ehtiramla anılırlar. Xalq həmin tarixi şəxsiyyətlərlə zaman-zaman qürur duyur, bütün nəsillər onlarla öyünürlər. XX yüzillikdə xalqımızın dünyaya bəxş etdiyi zamanlara sığmayan, bütün dövrlərlə ayaqlaşan belə böyük və nadir tarixi şəxsiyyət Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevdir. Bənzərsiz şəxsiyyət olan Heydər Əliyevin Azərbaycan xalqı, onun dövləti və dövlətçiliyi üçün gördüyü əzəmətli quruculuq işləri olduqca qürurverici və heyranedicidir. Bu nadir dövlət xadiminin adı Azərbaycan xalqının tarixinə əbədi olaraq həkk olunub. Azərbaycan dövlətinin memarı və qurucusu olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tarixdə dərin iz qoymuş bənzərsiz və əvəzedilməz şəxsiyyətdir.

Dünyada elə müdrik, elə uzaqgörən dövlət xadimləri olub ki, onlar öz ölkəsinin və millətinin taleyində, tarixində mühüm rol oynayıb, xalqlarının xilaskarlarına çevriliblər. Ulu Öndər Heydər Əliyev xalqımızın şərəf dolu tarixinə müasir Azərbaycan dövlətinin qurucusu və banisi kimi daxil olub. Xalqımızın yaddaşında əbədi və dərin izlər qoymuş böyük qətiyyət və iradə sahibi olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ölkəmiz üçün ən mürəkkəb və keşməkeşli günlərdə yaranmış ağır vəziyyətlərdən qurtuluşunun düzgün yolunu tapmağı böyük məharətlə bacardı, anındaca qətiyyətli addımlar atdı. Ulu Öndəri uca zirvələrə qaldıran, lider səviyyəsinə yüksəldən, zamanlara sığmaz edən ən ali keyfiyyətlərindən birincisi doğma xalqına bağlılığı, sevgisi və inamı idi. Xalq da öz liderinə sadiq idi, ona inanırdı, ona güvənirdi, onu özünə əbədi mayak bilirdi. Bənzərsiz şəxsiyyəti, siyasət və dövlət xadimlərinə xas olan misilsiz istedadı ilə seçilən Ulu Öndər Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. Azərbaycan xalqının tükənməyən sevgi və məhəbbətini qazanmışdı.

Azərbaycanlı olmağı ilə daim öyünən və fəxr edən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev yaşadığı bütün şərəfli ömrünü, elə şərəfli bir işə - xalqının rifahına, Azərbaycanı qurub yaratmağa və rəhbəri olduğu müstəqil ölkəsini dünyada tanıtmağa həsr etdi. Qarşıya çıxan bütün çətinlikləri yorulmaq bilmədən dəf edərək qüdrətli və yenilməz bir dövlət qurdu. Həm tarixdə, həm də Azərbaycan xalqının yaddaşında heç vaxt silinməyəcək dərin izlər qoydu.

Artıq səhifələnib tarixə qovuşmuş ötən əsrin yetmişinci illərindən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ölkəmizə rəhbər təyin olundu. Ulu Öndərin bənzərsiz təşəbbüskarlığı, müdrik siyasəti, səy və bacarığı ilə həmin zamanlar Azərbaycan tarixinə yüksəliş dövrü kimi düşüb. Bu, o zamanlar idi ki, Azərbaycan Respublikası keçmiş Sovetlər Birliyinin tərkibində birbaşa Moskvadan idarə olunurdu. Lakin Ulu Öndər Heydər Əliyev ölkəmizin tərəqqisi və inkişafı naminə böyük çətinlikləri dəf edərək mərkəzin diqqət və qayğısını ölkəmizin çiçəklənməsinə yönəltdi. İndiki günlərdə adi hal kimi qarşılanan bu addımı yetmişinci illərdə atmaq sarsılmaz iradə, yüksək qətiyyət və cəsarət, hər şeydən əvvəl isə böyük risk tələb edirdi. Bənzərsiz şəxsiyyət olan Ulu Öndər bu tarixi vəzifənin öhdəsindən bacarıqla gəldi.

Keçmiş ittifaq süquta uğradıqdan sonra Azərbaycan xalqı tarixin bu mərhələsindən bacarıqla istifadə edərək dövlət müstəqilliyinə qovuşdu. Təəssüflər olsun ki, həmin günlərdə ölkəmiz Ermənistanla müharibə vəziyyətində idi. Torpaqlarımızda gözü olan ermənilər yaranmış tarixi şəraitdən hiyləgərcəsinə yararlanaraq xaricdəki havadarlarının köməkliyi ilə ölkəmizin 20 faizdən çox ərazisini işğal etdilər. O zaman Azərbaycana rəhbərlik edənlər qətiyyətsizlik və iradəsizlik göstərdilər, zamanında Silahlı Qüvvələr yarada bilmədilər. Bundan istifadə edən ermənilər qanla yoğrulmuş işğalçılıq planlarını həyata keçirdilər.

**(Ardı 3-cü səhifədə)**

# Müdafiə naziri Türkiyənin yeni hərbi attaşesini qəbul edib



*Sentyabrın 6-da Türkiyə Respublikasının Azərbaycan Respublikasında yeni təyin edilən hərbi attaşesi general-mayor Soner Oruçoğlu müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim olunub.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonağı salamlayan müdafiə naziri onu ölkəmizdə fəaliyyətə başlaması münasibətilə təbrik edib. General-polkovnik Zakir Həsənov Vətən müharibəsində qardaş Türkiyənin göstərdiyi mənəvi və siyasi dəstəyə görə minnətdarlığını ifadə edib. Azərbaycanın müdafiə naziri iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrdə olduğu kimi, hərbi əməkdaşlığa da müstəsna təsirini xüsusi vurğulayıb.



Nazir Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlar, azad edilən ərazilərdə görülən işlər, həmçinin Azərbaycan-Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti barədə məlumat verib.

General-polkovnik Zakir Həsənov general-mayor S.Oruçoğluya Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın genişləndirilməsi sahəsində gələcək fəaliyyətində uğurlar arzulayıb.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən general-mayor S.Oruçoğlu ölkəmizdə hərbi attaşe kimi fəaliyyətə başlamasından məmnunluğunu ifadə edib. Hərbi attaşe Azərbaycan-Türkiyə əlaqələrinin, o cümlədən hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.





Görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Türkiyə Respublikasının Azərbaycan Respublikasında yeni təyin edilən hərbi attaşesi müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov ilə də görüşüb.

# Azərbaycan və Qazaxıstan nümayəndələrinin işçi görüşü keçirilib

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında imzalanan 2023-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq proqramına uyğun olaraq, Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin bir qrup hərbi qulluqçusu bu ölkədə səfərdə olub.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Tərbiyə və İdeoloji İş Departamentinin rəhbərliyi və müvafiq idarələrinin heyətləri ilə görüşlər keçirib.

Görüşlərdə ideoloji işin təşkili, hərbi psixoloqların hazırlığı, orduda mənəvi-psixoloji vəziyyətin yüksəldilməsi üzrə qarşılıqlı fikir mübadiləsi aparılıb, müxtəlif mövzulara dair brifinqlər təqdim edilib.



Təcrübə mübadiləsi baxımından bu cür görüşlərin və qarşılıqlı səfərlərin əhəmiyyəti xüsusi vurğulanıb.

Həmçinin nümayəndə heyəti Astana şəhərində yerləşən Milli Müdafiə Universitetində tərbiyəçi zabit və psixoloqların müvafiq tədris prosesi ilə tanış olub, Milli Hərbi Vətənpərvərlik Mərkəzini və Hərb Tarixi Muzeyini ziyarət edib.

## Müdafiə Nazirliyinin məlumatı

Sentyabrın 7-si saat 12:35-dən 14:00-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri ordumuzun Xocavənd və Ağdam rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

* * *

Sentyabrın 8-i saat 00:25 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Ağdam rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri qarşısında yeni səngərlər qazmağa cəhd göstəriblər.

Ordumuzun bölmələri tərəfindən görülən tədbirlər nəticəsində aparılan işlər dayandırılıb.

# Kursantlarla praktiki məşğələlər keçirilib



2023-cü ilin tədris planı və proqramına uyğun olaraq, Heydər Əliyev adına Hərbi İnstitutun kursantları ilə praktiki məşğələlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə kursantlar simulyasiya trenajorunda dəqiq nişanalma qaydalarını məşq ediblər.

Atəş şəhərciyində təhlükəsizlik qaydaları və atışın şərtləri çatdırıldıqdan sonra müxtəlif normativlər icra olunub.

Hərbi institutun kursantları silahların döyüşə hazır vəziyyətinə gətirilməsi və şərti düşmən hədəflərinin aşkarlanaraq atəşlə məhv edilməsi üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

Məşğələlərin keçirilməsində əsas diqqət kursantların silahlardan istifadə bacarıqlarının artırılmasına, eləcə də praktiki və döyüş vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

# Müdafiə Nazirliyinin bir qrup nümayəndə heyəti Gürcüstanda səfərdə olub



2023-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq proqramına uyğun olaraq, Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin bir qrup hərbi qulluqçusu Gürcüstana səfər edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, nümayəndə heyəti əvvəlcə Tbilisidəki Heydər Əliyev parkına gəlib, burada Ulu Öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyaraq xatirəsini hörmət və ehtiramla anıb.

Sonra Qəhrəmanlar meydanındakı Gürcüstanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda həlak olmuş vətəndaşların xatirəsinə ucaldılmış memorial ziyarət olunub.

Səfər çərçivəsində Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin rəisi polkovnik-leytenant Elgün Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstan Müdafiə Nazirliyinin Hərbi Polis Departamentinin rəisi polkovnik Kaxa Petriaşvili ilə görüşüb.



Görüşdə hərbi polis orqanlarının fəaliyyətinin təşkili, təhlükəsizlik, mövcud əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq böyük şəxsiyyət

(Əvvəli 1-ci səhifədə)

Görkəmli alman filosofu Hegel tarixdə şəxsiyyətlərin rolundan bəhs edərək yazırdı: "Sürətlə siyasi tənəzzülə yaxınlaşan xalqların taleyini yalnız dahilər xilas edə bilərlər". Filosofun düşüncələri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsində bir daha tarixdə öz təsdiqini tapdı. Ölkəmiz üçün çətin olan zamanlarda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər ölkəni real təhlükələrdən xilas etdi, güclü, qüdrətli bir dövlət yaratdı.

1993-cü ilin iyununda ölkədə baş verən hadisələr çox gərgin xarakter almışdı. Vəziyyət çox gərginləşmişdi. Elə gərginləşmişdi ki, yenicə müstəqillik qazanmış Azərbaycan dövləti dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. O zamanlar ölkəmizin düşdüyü ağır tarixi şərait tələb edirdi ki, xalqı bu fəlakətdən qurtarmağa qadir olan dahi bir şəxsiyyət hakimiyyətə gəlsin. Bu, həmin dövr idi ki, ölkədə hərc-mərclik, hakimiyyətsizlik hökm sürürdü. Hakimiyyətdəkilər ölkəni və xalqı idarə edə bilmirdilər. Xalqımız və ölkəmiz üçün belə ağır bir zamanda milyonların dəvəti ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı. Yaşanmış tarix göstərdi ki, xalq seçimini vaxtında və çox düzgün edib. Çünki Ulu Öndər gəlişi ilə Azərbaycanı, Azərbaycan xalqını, onun dövlətini və dövlətçiliyini real təhlükələrdən xilas etdi. Vətənimizin başının üstünü almış təhlükə tez bir zamanda aradan qaldırıldı. Hakimiyyətə qayıtdıqdan sonra heyrətamiz iradə və qətiyyət nümayiş etdirən Azərbaycan xalqının Ümummilli Lideri ölkəni düşdüyü fəlakətdən qurtardı. Ulu Öndər Heydər Əliyev qısa müddət ərzində uğurlara hesablanmış səmərəli islahatlara başladı. Böyük sürətlə həyata keçirilən bu səmərəli islahatlar sayəsində az bir zaman ərzində ölkəmizin həyatının bütün sahələrində önəmli dönüş yarandı. İstər hüquqi dövlət quruculuğu istiqamətində, istər iqtisadiyyatın dirçəldilməsi yolunda, istərsə də cəmiyyətdə kütləvi xarakter almış cinayət hallarının qarşısının alınmasına və həmçinin ən başlıcası ordu quruculuğu istiqamətində tarixi və zəruri addımlar atıldı. Silahlı Qüvvələrin yenidən yaradılması və formalaşması üçün çox mühüm və vacib işlər görüldü. Məhz bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş ordumuz 27 sentyabr 2020-ci ildə düşmən təxribatı nəticəsində başlanan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 28 ildən çox erməni qəsbkarlarının işğal etdiyi torpaqlarımızı azad etdi. Qazandığı zəfərləri ilə xalqımıza sevinc dolu günlər yaşatdı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli fəaliyyəti milli-mənəvi irsimizin əsasını təşkil edir. Bu milli-mənəvi irs həm bugünkü, həm də gələcək nəsillər üçün örnək yeri olacaq. Ömrünü Azərbaycan xalqına həsr etmiş Ulu Öndər həm keçmiş İttifaq dövründə, həm də müstəqillik illərində Azərbaycanın inkişafı naminə misilsiz işlər gördü, qətiyyətli addımlar atdı. Ölkəmizin hüquqi, iqtisadi, siyasi, elmi, mədəni, hərbi və başqa sahələrində böyük tarixi şəxsiyyət Heydər Əliyevin fəaliyyətinin pozulmaz izləri daim yaddaşlarda yaşayacaq. Bütün bunlara görə tam inamla demək olar ki, müasir müstəqil dövlətimizin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevdir. Məhz bu tarixi şəxsiyyətin yaratdığı qüdrətli ölkəmiz 21-ci əsrdə də inamla və qətiyyətlə addımlayır. Bu gün müstəqil dövlətimiz böyük dövlət xadimi Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında daha da sürətlə inkişaf edir. Azərbaycanın beynəlxalq aləmdə nüfuzu getdikcə bütün dünyada artmaqdadır.

Əsrlər, zamanlar keçsə də, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsi qəlbimizdə əbədi yaşayacaq. Ulu Öndərin dövlət quruculuğu, ordu quruculuğu, iqtisadi islahatlar, milli şüurun oyanışı və dirçəlişi, azərbaycançılıq ideologiyamızın inkişafı və formalaşması, gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsi və digər sahələrdəki siyasi irsi elm və təhsil ocaqlarında hərtərəfli öyrənilir və geniş təbliğ olunur. Tam inamla deyə bilərik ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin keçdiyi şərəfli ömür yolu və siyasi fəaliyyəti hamımız üçün örnək yeridir.

Yaşanmış tariximizin olduqca keşməkeşli dövrlərində Azərbaycanın və xalqımızın qurtuluşu naminə böyük qətiyyətlə, yenilməz iradə ilə siyasət meydanına atılan Ulu Öndər Heydər Əliyevin adı və işıqlı ideyaları əbədi yaşayacaq. Azərbaycan xalqının Ümummilli Liderinə olan sevgisi, ehtiramı heç zaman tükənməyəcək. Bu ehtiramın işığı, nuru heç vaxt sönməyəcək, zaman keçdikcə daha da parlayacaq, daha da gurlaşacaq!

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# "...Onun döyüş yolu mənim üçün örnəkdir"

*İyirminci əsrin sonunda baş vermiş Birinci Qarabağ müharibəsi nəsillərin yaddaşında silinməz izlər qoydu. İşğalçı erməni ordusu tərəfindən minlərlə azərbaycanlı döyüşlər vaxtı əsir oldu, şəhidlik zirvəsinə ucaldı və yaxud yaralandı. Ən əsası isə bir milyona yaxın insan doğma yurdlarından didərgin düşdü.*

Bu dəhşətlərə cavab olaraq Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-dən ermənilərin genişmiqyaslı təxribatlarının qarşısını almaq üçün əks-hücum əməliyyatı apararaq Qarabağı düşmən əsarətindən azad etdi. Minlərlə qəhrəman oğul evlərinə qələbə xəbərləriylə qayıtdı, üçrəngli bayrağa bürünmüş şəhidlərimiz Zəfər çələngləri ilə son mənzillərinə yola salındı. Döyüşlərdə iştirak etmiş hərbçilərimiz göstərdikləri igidliklərə görə müxtəlif orden və medallara layiq görüldülər.

Belə igidlərimizdən biri də "N" hərbi hissəsində tanış olduğumuz baş leytenant Əlqismət Vahid oğlu Nuriyevdir. Zabit söhbətimiz zamanı bildirdi ki, 44 günlük Vətən müharibəsinin iştirakçısıdır.

Həyat və döyüş yolunu vərəqlədikdə öyrənirik ki, baş leytenant Ə.Nuriyev 1996-cı il yanvarın 25-də Lerik rayonunun Divağac kəndində doğulub. 2011-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Dərslərə böyük həvəslə hazırlaşdığını deyən zabit 2014-cü ildən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) ali hərbi təhsilini davam etdirib.

"Əks-hücum əmri veriləndə qədər həyəcanla gözləyirdim ki, döyüşlər başlayacaq və mən də onun iştirakçılarından biri olacağam. Sübh tezdən Ali Baş Komandanın əmrini icra etmək üçün irəli atıldıq. Torpaqlarımızın azadlığı uğrunda döyüşmək bizlərin həsrətdən qurumuş ürəklərinə səpilən sərin su kimi rahatlıq hissi gətirirdi.



Suqovuşan uğrunda gedən qızğın döyüşlərdə bölməmizlə bərabər düşmən səddini yararaq irəliləyirdik. Düşmənin bir atəşinə yüz atəşlə cavab verirdik. Onlar da bizim səbrimizin bitdiyini çox yaxşı anlayırdılar. Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən düşmən əsgərləri komandirlərinin əmrini heçə sayaraq döyüş meydanından qaçırdılar. Hər birimizin adi qəbul etdiyi bu hal heç birimizdə təəccüb hissi doğurmurdu.

Artıq döyüşlərin başlamasından bir aydan artıq müddət ötürdü. Oktyabrın 30-u Ağdərə istiqamətində gedən döyüşlərdə yaralanaraq hərbi hospitala yerləşdirildim. Yaralanmağım məni olduqca məyus edirdi. Bir an əvvəl buradan çıxıb döyüş yoldaşlarımın yanına qayıtmaq istəyirdim. Noyabrın 6-da yenidən müalicəmi başa vurub döyüşlərə yollandım. Çox keçmədi ki, düşmən kapitulyasiya aktına imza atdı. Bu akt bizim qalibiyyət, düşmənin məğlubiyyət sənədi oldu. Fəxrlə qeyd edim ki, döyüşdən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarına layiq görüldüm".

Söhbətimizin sonunda baş leytenant Əlqismət Nuriyevdən nəyə görə hərb peşəsini seçdiyini soruşduq. O isə cavabında bildirdi ki, əmisi Nuriyev İldırım Xanəli oğlu Birinci Qarabağ müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. 1993-cü il martın 30-da başından aldığı qəlpə yarasından sonra şəhidlik zirvəsinə ucalıb. İldırım Nuriyevin döyüşlərdə göstərdiyi igidliklər haqqında çox eşitdiyini deyən Əlqismət bu hadisənin hərb peşəsini seçib düşməndən əmisinin və şəhidlərimizin intiqamını almağında stimul olduğunu bildirdi. İndi şəhid əmisinin adını yeganə övladına qoyaraq onun xatirəsini də bir ömür yaşatmaqdadır.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı başa çatıb





*2023-cü ilin hazırlıq planına əsasən, "N" hərbi hissəsində ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlilərin iştirakı ilə keçirilən təlim toplanışı başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplanış müddətində hərbi vəzifəlilərlə döyüş hazırlığı üzrə məşğələlər keçirilib, onlara silah və texnikanın taktiki-texniki xüsusiyyətləri, eləcə də düzgün istifadə qaydaları öyrədilib.

Həmçinin hərbi vəzifəlilərin mənəvi-psixoloji vəziyyətləri yoxlanılıb, onlarla milli-mənəvi dəyərlərə sadiqlik, dövlətçilik və vətənpərvərlik ruhunda maarifləndirici söhbətlər aparılıb.

Təlim toplanışı başa çatdıqdan sonra hərbi vəzifəlilər aidiyyəti dövlət qurumunun nümayəndələrinin müşayiəti ilə yaşayış yerlərinə yola salınıblar.

## HHM bölmələrinin peşəkarlığı artırılır

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi hazırlıq planına uyğun olaraq, hava hücumundan müdafiə bölmələrinin döyüş atışlı məşğələləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şəxsi heyətin praktiki vərdişlərinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi məqsədilə keçirilən təlimdə döyüş atışları icra olunub.

Şərti düşmənin hava hədəflərinin aşkar olunaraq daşınan zenit-raket kompleksləri vasitəsilə məhv edilməsi üzrə qarşıya qoyulan döyüş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirilib.

Azərbaycan Ordusunun müxtəlif qoşun növlərində hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə keçirilən təlimlər davam edir.



### Gənc zabitlərimiz

## "Zabit olmaq uşaqlıq arzum olub"

Atası Ağdamın Saybalı kəndindəndi. Kəndləri işğal olunanda Mingəçevirdə məskunlaşıblar. Özü Mingəçevirdə böyüyüb, ruhu görmədiyi Ağdamın Saybalı kəndində dolaşıb. Həmişə tay-tuşlarıyla kəlmələşəndə qürurla deyərmiş: ağdamlıyam. Biz, Ağdamımıza qayıdacağıq. Müəllimləri Elçinin hiss edilməsi çətin olmayan qəhərində Zakirin ("Biz qayıdacağıq" bədii filminin qəhrəmanı) qəhərini gördüyünü deyirdi.

Elçin Mehdiyevin istəyi xalqın istəyinin zərrəsiydi. Bu həsrət onun peşə seçimini müəyyənləşdirdi. Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseyə daxil oldu. Ailədən uzaqlarda ailənin də istəyini gerçəkləşdirmək üçün məsuliyyətlə oxuyurdu, öyrənirdi. Bir dəfə müəllimləri soruşmuşdu: Niyə hərbçi olmağı qərara aldın? Tərəddüd etmədən demişdi ki, torpaqlarımız işğaldan azad ediləcək. Torpaqlarımızı işğaldan azad edənlərin sırasında olmaq istəyirəm. Azad edilmiş Saybalıya zabit kimi getməyə niyyətliyəm. Müəllimin əli Elçinin çiyninə enmişdi.

Hərbi liseyi bitirdi, ali hərbi təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər



Əliyev adına Hərbi İnstitut) davam etdirdi. Mühazirələrdə də, seminarlarda da, çöl çıxışlarında da öyrənirdi. Ona elə gəlirdi ki, niyyətinə öyrənə-öyrənə yaxınlaşır - Elçin Mehdiyev nümunəvi kursant idi...

Ali hərbi təhsilini 2015-ci ildə tamamladı. Bu da niyyətin başlanğıcı! Bu da böyük dünyaya qovuşduran zabit ömrünün şəfəqləri!..

...İkinci Qarabağ müharibəsi ərəfəsində Murovdağ istiqamətində xidmət edirdi. Yüksək döyüş hazırlığına malik olan batareyanın şəxsi heyəti də torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnəcək döyüşlər arzulayırdı. Baş leytenant Elçin Mehdiyev də həmin günün tariximizi durulaşdıracağına əmin idi.

Sentyabrın 27-si çənli-çiskinli bir gün idi. Komandanlıq batareyaya döyüş əmri verdi: Düşmənin mövqeyinə 4 mərmi atmalı! Bu mərmilər əks-hücum əməliyyatında atılan ilk mərmilər idi. Mərmilər hədəfə dəymişdi... Komandanlığın verdiyi sonrakı əmrlər də uğurla icra olundu.

Oktyabrın 17-si idi. Saat 18:00-19:00 radələrində Kəlbəcərin Ağçınqıl ərazisinə atış müəyyənləşdirilmişdi. Meşəlik ərazidə atışların təsirliyini də nəzərə almışdılar. İlk atışlar düzəlişsiz dəqiq olmuşdu - 4 mərminin 4-ü də düşmənin hədəfinin üstünə düşmüşdü. Sonrakı mərmilər düşmənin döyüş texnikalarını, canlı qüvvəsini məhv etmişdi. Baş leytenant Elçin Mehdiyevin xidmət etdiyi batareya bu döyüşləri də qələbə ilə tamamlamışdı...

Düşmənin böyük hərbi hissələrindən biri Kəlbəcərin Yanşaq kəndindəydi. Batareyaya hərbi hissənin koordinantları verilmişdi. Dağlıq massivdə, daşlıq çıxıntılar arasında yerləşən hədəfi dəqiq vurmaq çətin idi. Günortaydı. İlk 2 mərmi atıldı - sınaq atəşlərinə xırda düzəliş verildi. Sonrakı 10 mərmi hədəfə dəydi. Əmr yerinə yetirildi...

Sonrakı döyüşlərdə də batareya döyüşən ordu hissələrimizə gərəkli atəş dəstəyi verdi.

Zəfər Azərbaycanımızın zəfəri oldu.

Baş leytenant Elçin Mehdiyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub...

Baş leytenant Elçin Mehdiyev deyir ki, bu tarixi Zəfər torpaqların da, insanların da həsrətinə son qoydu. Ona görə başəri zəfərdi...

Zabit olmağı uşaqlığından arzulayanlar da - bu gün zabit kimi xidmət edənlər də belə düşünürlər...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

### Tibb xidməti

## "İgidlərimizin sağlamlığının keşiyindəyik"

*"N" hərbi hissəsinin şəxsi heyətinin sağlamlığı peşəkar hərbi tibbi personalın nəzarəti altındadır. Onlar günün istənilən vaxtı hərbçilərimizə xidmət göstərirlər.*

Tibb məntəqəsindəki təmizlik, səliqə-sahman, ağ xalatlı tibb işçilərinin əsgərlərə diqqət və qayğısı nəzərimizdən yayınmadı. Qəbul otağında gizir Sabir Həsənlinin tibb məntəqəsinə müraciət edən əsgəri müayinə etməsinin şahidi olduq. Əsgərin qeydiyyatı tamamlandıqdan sonra gizir Sabir Həsənli ilə söhbətləşdik. O bildirdi ki, hərbçi peşəsi çətin olsa da, şərəflidir. "Mən də bu şərəfli peşənin sahibi olduğum üçün qürurlanıram. Əsgərlərimizin sağlamlığının qayğısına qaldığım üçün isə bu qürur ikiqatdır. Tibb məntəqəsinə müraciət edən hər bir hərbi qulluqçu ilkin müayinə olunur, qeydiyyata alınır. Sonra isə müvafiq qaydada yönləndirilir. Hər bir vəzifənin öz məsuliyyəti olsa da, düşünürəm ki, bizim vəzifəmizin məsuliyyəti daha artıqdır. Çünki Vətən keşiyində dayanan igidlərimizin sağlamlığına cavabdehik. Məntəqəyə müraciət edən hər kəs diqqətlə dinlənilir. Burada hərbçiyə fərdi yanaşılır. Xəstəliyin müalicəsi üçün ilk olaraq hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyəti yüksək olmalıdır. İnsanda ruh yüksəkliyi, həkiminə inam hissi nə qədər çox olarsa, xəstəliyin öhdəsindən gəlmək də bir o qədər asan olar. Bundan başqa, bizim işimiz təkcə müalicə etmək deyil, həm də hərbçilərimizin xəstələnməməsi üçün qabaqlayıcı profilaktik tədbirlər aparmaqdır. Bunun üçün vaxtaşırı bölmələri ziyarət edir, hərbi qulluqçularla maarifləndirici söhbətlər aparırıq. Onlara fərdi gigiyena qaydalarına əməl etmələrinin vacibliyini çatdırırıq. Çalışırıq ki, hərbçilərimiz xəstələnməsinlər, sağlamlığı ilə bağlı problemləri olanlar isə tez bir zamanda sağalıb xidmətlərini davam etdirsinlər.



Bu prosesdə bizimlə çiyin-çiyinə xidmət edən tibb bacılarının da zəhməti əvəzolunmazdır. Onlar tibb məntəqəsində müalicə olunan əsgərlərə qayğı və diqqət göstərirlər. Həkimlərin təyin etdiyi müalicə üzrə dərmanların vaxtında verilməsində, iynələrin vurulmasında, sarğıların dəyişdirilməsində və digər xidmətlərdə onların da rolu böyükdür".

Əsgər Fəqan İsgəndərov tibb məntəqəsinə ilk dəfə müraciət etdiyini və buradakı xoş münasibətdən çox razı qaldığını bildirdi: "Xidmətə başladığımız ilk gündən komandirlərimizin diqqət və qayğısı ilə əhatə olunmuşuq. Bir qədər təəssüflənirəm ki, bu gün sağlamlığımda narahatlıq yaranıb. Ancaq əminəm ki, hərbi həkimlərimizin təyin etdiyi müalicə ilə tez bir zamanda sağalacam və xidmətimi davam etdirmək üçün bölməmizə, əsgər dostlarımın yanına qayıdacağam".

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**C.CƏFƏROVUNDUR**

# "Şəhid ailələrinə diqqət göstərmək hər bir vətəndaşın mənəvi borcudur"

Ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərin ailələrinə, əlillərə və müharibə veteranlarına yüksək diqqət və qayğı göstərilməsi hər zaman dövlət siyasətinin prioritet məsələsidir. Birbaşa Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və nəzarətində olan bu məsələ ilə bağlı ən ali səviyyədə müvafiq göstərişlər verilir və bu kateqoriyadan olan insanların problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilir.



Dövlət başçısının imzaladığı müvafiq Fərman və sərəncamlar şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm rol oynayır. Dövlətimiz və qədirbilən xalqımız hər zaman əhalinin həssas qruplarına, şəhid ailələrinə və döyüşlərdə sağlamlığını itirmiş şəxslərə göstərdiyi diqqət və qayğı ilə seçilir. Bu kateqoriyadan olan insanların rifah halının yaxşılaşdırılması üçün mütəmadi olaraq proqramlar qəbul edilir, layihələr icra olunur və bu istiqamətdə gerçəkləşdirilən bütün məsələlər xüsusi diqqətdə saxlanılır. Dövlət başçısı çıxışlarında hər zaman bu insanların problemlərinin həllinə diqqət yetirilməsinin vacibliyini vurğulayır.

Cənab Prezidentin tapşırığı ilə mütəmadi olaraq şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlər keçirilir, onların məişət problemləri dövlət xətti ilə həll olunur. Bir sözlə, dövlətimiz tərəfindən şəhid ailələrinin sosial müdafiəsinin yüksək səviyyədə təşkil edilməsi istiqamətində həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır.

Şəhid ailələri ilə növbəti görüş Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsində (BHİK) baş tutdu. Qarşıdan gələn 15 sentyabr - Bilik Günü münasibətilə şəhid ailələri ilə görüş təşkil edən BHİK nümayəndələri ənənəvi olaraq hər il Bilik Günü ərəfəsində respublikamızın müxtəlif şəhər və rayonlarında yaşayan şəhid ailələri ilə görüşərək, onların övladlarına məktəb ləvazimatları hədiyyə edirlər. Komitə üzvləri ənənəyə sadiq qalaraq, bu il də ümumilikdə 15-dən çox ailənin 40-a yaxın övladını sevindirdi.

Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Zakir Müslümov şəhid ailələrini salamlayaraq, dövlətimizin ardıcıl olaraq onların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirdiyini bildirdi. "Azərbaycanda müharibə əlillərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı göstərilir və bu siyasətin əsasını Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev qoyub. Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü il avqustun 26-da imzalanan "Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" Fərman müharibə əlillərinin sosial ehtiyaclarının ödənilməsi istiqamətində atılan ilk addımdı. Həmin Fərmanın imzalanması ilə müharibə iştirakçılarının, əlillərin sosial müdafiəsini gücləndirmək məqsədilə tədbirlərə start verilib. Məhz bu gün də bu sahədə ardıcıl olaraq yüksək səviyyədə işlərin aparılması şəhid və əlil ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə müstəsna töhfələr verir. Dövlət başçısının müvafiq göstərişlərinə əsasən dövlət qurumları tərəfindən onların qayğıları ilə yaxından maraqlanırlar, problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir, şəhid olmuş qəhrəmanlarımızın ailə üzvlərinə və müharibə iştirakçılarına qayğı və diqqətin artırılması məqsədilə sistemli işlər görülür".

Çıxışına davam edən BHİK sədri bildirdi ki, şəhid ailələrinə və müharibə veteranlarına diqqət göstərmək, onların qayğıları ilə maraqlanmaq hər bir vətəndaşımızın mənəvi borcudur. "Şəhidlik zirvəsi bütün yüksəkliklərdən ucada dayanan bir zirvədir. Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq isə ən böyük şərəf və qürurdur. Onların əziz xatirəsi hər zaman qəlbimizdə yaşayır. Sizin yoldaşlarınızın, övladlarınızın igidliyi, şücaəti sayəsində, biz firavan həyat yaşayırıq. Otuz ilə yaxın işğalda olan torpaqlarımız onların döyüş əzmi, mübarizliyi və canları bahasına azad olundu. 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun əks-hücum əməliyyatı Böyük Qələbəmizlə başa çatdı. Mərd oğullarımız zəfər tariximizi öz qanları ilə yazdılar. Bu müqəddəs yolda canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar, gələcək nəsillərə örnək olacaq ömür yadigar qoydular. Onların qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün hər zaman örnək olacaq".

Görüşün sonunda çıxış edən şəhid ailələri BHİK üzvlərinə təşəkkürlərini bildirdilər. Belə görüşlərin və tədbirlərin keçirilməsinin onlara dövlətimiz və xalqımız tərəfindən göstərilən yüksək qayğının nəticəsi olduğunu qeyd etdilər. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını bildirdilər. Rəşadətli ordumuzun şanlı qələbəsindən, işğaldan azad olunan torpaqlarımızda üçrəngli Azərbaycan bayrağının dalğalanmasından təsəlli tapdıqlarını diqqətə çatıraraq bildirdilər ki, var olsun, Vətənimiz, var olsun Azərbaycan Ordusu!

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**



# "Hərbi qulluqçuların istirahəti də səmərəli təşkil olunur"



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü ili "Heydər Əliyev İli" elan etməsi xalqımız tərəfindən böyük rəğbətlə qarşılandı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsi ölkəmizdə dərin məhəbbətlə anılır, Vətənimiz qarşısında misilsiz xidmətləri heç zaman unudulmur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu Sərəncamı ilə əlaqədar müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunda da fəaliyyətlər davam etdirilir.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin təşkilatçılığı ilə Müdafiə Nazirliyinin İstirahət Evində "Heydər Əliyev İli" çərçivəsində hərbi qulluqçuların və onların ailə üzvlərinin asudə vaxtının səmərəli təşkili məqsədilə mədəni-kütləvi tədbir keçirildi.

Müdafiə Nazirliyi və ictimaiyyət nümayəndələrinin, millət vəkili Jalə Əhmədovanın, hərbi qulluqçular və onların ailə üzvlərinin iştirak etdiyi tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Çıxış edən polkovnik Elvin Əzizov, polkovnik-leytenant Kamil Cəlilov və şöbə rəisi Zümrüd Səmədova Vətənimiz üçün müstəsna xidmətləri ilə əbədilik qazanan Ulu Öndər Heydər Əliyevin mənalı həyat yolundan, zəngin və çoxşaxəli irsindən söz açdılar. Qeyd etdilər ki, bu il anadan olmasının 100 illiyini təntənə ilə qeyd etdiyimiz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın dövlət müstəqilliyi möhkəmləndirildi. Vurğulandı ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin davam etdirdiyi uğurlu siyasəti sayəsində ölkəmiz daha da inkişaf edir. "Azərbaycan dövlətçiliyinin, xüsusilə də Azərbaycan Ordusunun mövcudluğu, şərəfli tarixi, bugünkü inkişaf səviyyəsi Ulu Öndər Heydər Əliyevin gördüyü unudulmaz işlərin nəticəsidir. Əbədiyaşar Komandanın siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər sahədə olduğu kimi, ordu quruculuğu sahəsində də apardığı uğurlu islahatların şahidiyik. Şəxsi heyət hərtərəfli diqqət və qayğı ilə əhatə olunur. Hərbi qulluqçuların istirahəti də səmərəli təşkil olunur".

Həmçinin qeyd olundu ki, ordumuzda yaradılan sosial-məişət şəraiti artıq bütün dünya standartlarına cavab verməkdədir. Hərbi hissələr tikilir, təmir olunur, təminat səviyyəsi günü-gündən yüksəldilir. Bununla yanaşı, hərbi qulluqçuların, həmçinin onların ailə üzvlərinin istirahətinin təşkili üçün Müdafiə Nazirliyinin İstirahət Evi fəaliyyət göstərir. İstirahətçilərin yerləşməsi üçün bütün lazımi məişət avadanlıqları ilə təchiz olunan müasir yataq korpusları və kotteclər, səmərəli vaxtının təşkili üçün hovuz və yaxınlıqda çimərlik də mövcuddur. İstirahət Evində müəyyən xəstəliklərin müayinə və müalicəsi də mümkündür. Bundan başqa, burada qazon və yaşıllıq sahələri vardır, həmçinin dekorativ və meyvə ağacları, güllər və bəzək kolları da əkilib.

Tədbirin sonunda iştirakçılara bədii hissə təqdim edildi. Müxtəlif incəsənət xadimlərinin ifasında səsləndirilən vətənpərvərliyi tərənnüm edən musiqilər, oxunan şeirlər tədbir iştirakçılarının böyük marağına səbəb oldu.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**

**2. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.**

## Mövzu: Müstəqillik tariximiz. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində

### Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu

1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, xalqımızın tarixində mühüm bir hadisə idi. Belə ki, əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət ki, öz müstəqil dövlətinə sahib oldu.

Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu, ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb daxili və beynəlxalq şəraitdə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin əsas hissəsini, ilk növbədə, Azərbaycanın müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq, həmçinin Cənubi Qafqaz respublikaları arasında mübahisəli məsələlərin, xüsusilə Ermənistanın ərazi iddiası məsələsinin həlli təşkil edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə xarici siyasət və diplomatik əlaqələr Xarici İşlər Nazirliyi, Azərbaycanın xarici dövlətlərdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, konsulluqları, habelə xarici dövlətlərin ölkəmizdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə həyata keçirilmişdir.

1918-ci il iyunun 4-də müstəqil Azərbaycan hökuməti ilə Osmanlı dövləti arasında imzalanan "Qarşılıqlı yardım və dostluq haqqında" müqavilə Cümhuriyyətin ilk diplomatik sənədi kimi qəbul edilir. 1918-ci il sentyabrın 15-də Bakının işğaldan azad edilməsi Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı tarixinə yazılan şanlı səhifələrdəndir. Noyabrın 16-da Bakıda yenidən fəaliyyətə başlamış Azərbaycan Milli Şurası respublikada ali hakimiyyət orqanı kimi 120 nəfərdən ibarət Azərbaycan Cümhuriyyəti Parlamentini yaratmaq haqqında Qanun qəbul etdi.

Bu dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti və hökuməti xarici təhlükənin qarşısını almaq üçün müstəqil respublikanın beynəlxalq aləmdə tanınması istiqamətində böyük iş aparırdı. 1918-ci il dekabrın 7-də açılmış Azərbaycan parlamenti Paris Sülh Konfransında iştirak etmək üçün parlamentin sədri Ə.M.Topçubaşovun başçılığı ilə geniş səlahiyyətlərə malik xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etmişdi. Cümhuriyyət dövrünün görkəmli dövlət xadimlərindən biri olan Ə.M.Topçubaşov qarşıya çıxan bütün çətinliklərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin tanınması üçün böyük fədakarlıq göstərdi. Nəticədə 103 il bundan əvvəl - 1920-ci il yanvarın 11-də Azərbaycanın müttəfiq dövlətlərin Ali Şurası tərəfindən de-fakto tanınması haqqında qərar qəbul olundu. Azərbaycanın istiqlaliyyətinin Paris Sülh Konfransı tərəfindən tanınması tarixi əhəmiyyətli hadisə idi.

1920-ci il martın 20-də Azərbaycan ilə İran arasında əməkdaşlığın bütün sahələrini əhatə edən saziş və müqavilələr imzalanmışdı. Tərəflər arasında imzalanan dostluq müqaviləsinə əsasən, İran Azərbaycan Xalq Cümhuriyyətini de-yure tanıdığını bildirdi. Qısa müddətdə Tehranda Azərbaycanın səfirliyi, Təbrizdə baş konsulluğu, Rəştdə konsulluğu, Ənzəlidə, Məşhədlə vitse-konsulluğu, Xoy və Əhərdə konsul-agentlikləri yaradıldı. 1920-ci ilin aprelin ortalarında Azərbaycan parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveç, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis etmək haqqında qanun qəbul etdi.

### Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində

XX yüzilin sonunda dünyada baş verən qlobal proseslər, Varşava Müqaviləsi Təşkilatının ləğv edilməsi, "soyuq müharibə"nin başa çatması, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu.

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi və 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi.

Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin Ermənistanın hərbi təcavüzü ilə dərinləşən ciddi siyasi və iqtisadi problemlərlə müşayiət olunması onun diplomatiyası qarşısında çox mühüm vəzifələr qoyurdu. Təcavüzün və millətçi separatizmin qarşısını almaq, onların ağır nəticələrini aradan qaldırmaq, dövlətin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünya birliyi ilə siyasi və iqtisadi inteqrasiyaya girmək zərurəti məqsədyönlü, ardıcıl və fəal xarici siyasətin həyata keçirilməsini tələb edirdi. Beynəlxalq birliyi Azərbaycan ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması zəruriliyinə inandırmaq, milli maraqları dünya dövlətlərinin kəsişən və toqquşan mənafeləri ilə uzlaşdırmaq, Azərbaycanın müstəqilliyinə və təhlükəsizliyinə beynəlxalq təminat almaq üçün çox ciddi səylər edilməli və gərgin fəaliyyət göstərilməli idi.

Belə bir şəraitdə yalnız 1993-cü ilin ikinci yarısından Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Həmin dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Azərbaycanın milli təhlükəsizliyi onun dünya və region dövlətləri, habelə beynəlxalq təşkilatlarla balanslaşdırılmış strateji xətt yeritməsini zərurətə çevirdi. Bu baxımdan, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərindən biridir.

Azərbaycan beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, eləcə də fəal surətdə iştirak etmək və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, 1994-cü il mayın 4-də Ulu Öndər Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. Bunun ardınca, 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalanmışdır.

Azərbaycanın Avropa institutlarına inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Belə ki, Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul olundu.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına və dinamik şəkildə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyənləşdirən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirir. 2003-cü ildən başlayaraq, o cümlədən son on altı il ərzində xarici siyasət sahəsində böyük uğurlar əldə edilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan ilə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artmış, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq genişlənmişdir. Bu baxımdan, Azərbaycan 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan Avropa qonşuluq siyasətinə qoşulmuşdur. 2006-cı ildə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanmış, 2008-ci ildə isə Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramına qoşulmaqla bu siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənmiş və keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı siyasət, yəni, həm ölkə daxilində, həm də xaricdə bu istiqamətdə Azərbaycanın həyata keçirdiyi tədbirlər İslam aləmində həmrəyliyi, əməkdaşlığı və müsəlman birliyini daha da möhkəmləndirir. Həmçinin son illərdə ölkəmizin ev sahibliyi etdiyi, eləcə də dövlətimizin başçısının təşəbbüsü ilə keçirilən bir sıra mühüm əhəmiyyət kəsb edən tədbirlər - VII Bakı Beynəlxalq Humanitar Forumu, VII Qlobal Bakı Forumu, Qoşulmama Hərəkatının Xarici İşlər Nazirləri Konfransı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclası, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Nazirlər toplantısı, Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi və s. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəltmişdir.

Bundan əlavə, Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir və dövlətimizin başçısının bütün səyləri regionun inkişafına, sabitliyin qorunub saxlanılmasına yönəlmişdir. Azərbaycan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Gürcüstan-İran və digər əməkdaşlıq formatları buna əyani sübutdur. Keçən dövr ərzində müxtəlif regional əməkdaşlıq formatları çərçivəsində öz təşəbbüskarlığı ilə seçilən Azərbaycan Respublikası ilk dəfə olaraq dövlət başçıları səviyyəsində keçirilmiş Azərbaycan-Rusiya Regionlararası Forumuna, həmçinin Azərbaycan, Gürcüstan, İran və Türkiyənin Xarici İşlər nazirlərinin birinci dördtərəfli görüşünə də ev sahibliyi etmişdir.

Azərbaycan Respublikasının beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində rolu və yerini dəyərləndirən dünya ictimaiyyəti artıq onu həm də etibarlı tərəfdaş kimi tanıyır. Respublikamızın karbohidrogen strategiyasının mühüm tərkib elementlərindən olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri, eyni zamanda, ticarət və iqtisadi əlaqələrə müsbət təsir göstərən, dünyanın müxtəlif istiqamətlərini birləşdirən, Avrasiyanın nəqliyyat xəritəsini təzələyən Bakı-Tbilisi-Qars dəmir yolu xətti və layihəsi planlaşdırılan Zəngəzur dəhlizi Azərbaycana beynəlxalq aləmdə mühüm iqtisadi və strateji üstünlüklər qazandırmaqla yanaşı, bu gün bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində xüsusi rol oynayır.

Hazırda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin beynəlxalq aləmdə milli maraqlarımızın qorunması istiqamətində gördüyü çoxşaxəli işlər, apardığı müstəqil xarici siyasət Azərbaycan Respublikasının rolunun daha da artmasını mümkün edib. Məhz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin gərgin əməyi sayəsində Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Nəzərə almaq lazımdır ki, yüz illik müstəqillik tarixinə malik olan bir çox ölkələr nə qədər cəhdlər etsələr də, BMT Təhlükəsizlik Şurasının tərkibinə düşə bilməyiblər. Bu onu nümayiş etdirir ki, Azərbaycan dünya dövlətləri tərəfindən etibarlı tərəfdaş, güclü, qüdrətli ölkə kimi tanınır və qəbul edilir. 2011-ci il mayın 26-da Azərbaycan təşkilata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək Qoşulmama Hərəkatına tamhüquqlu üzvü qəbul edilmişdir. Səkkiz ildən sonra isə ölkəmizə göstərilən hörmətə, inama və etimada görə 120 ölkənin birləşdiyi Qoşulmama hərəkatına sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul edildi.

Ölkəmizi dünya birliyinə təqdim edən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin balanslaşdırılmış çoxşaxəli siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin düşünülmüş strategiya və gərgin diplomatik səyləri nəticəsində müasir Azərbaycan Respublikası beynəlxalq münasibətlərin tam hüquqlu subyektinə çevrilib. Sürətli iqtisadi inkişaf və dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normalarına sadiqlik nümayiş etdirməsi isə ölkəmizi regional lider dövlətinə çevirib və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanıdıb.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Məişət*

# Müstəqil dövlətin hər bir fərdi öz əsgərinə qayğı göstərməyə borcludur

Azərbaycan Ordusunun müasir dövrün tələbləri əsasında formalaşıb təkmilləşdirilməsi məsələsi dövlət rəhbərliyi səviyyəsində nəzarətdə saxlanılan prioritet məsələlərdən biridir. Son aylara nəzər salsaq görərik ki, işğaldan azad olunmuş ərazilərdə qısa müddət ərzində hərbi infrastrukturun qurulması işləri uğurla aparılır. Yeni tikilən hərbi təyinatlı obyektlər müasir standartlara tam cavab verir. Hərbi hissələr modern tələblərə cavab verən əsgər yataqxanaları, ideoloji, xidməti, tədris və istirahət otaqları, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana və digər inzibati obyektlərlə təmin olunub. Sadalananlar bir daha onu təsdiq edir ki, hərbi xidmətdə olan hərbi qulluqçuların sosial-məişət şəraiti dövlət və ordu rəhbərliyi tərəfindən hər zaman diqqət mərkəzində saxlanılan məsələlərdəndir.



"N" hərbi hissəsində şəxsi heyət üçün yaradılan məişət şəraitinin təşkili ilə yaxından maraqlandıq. Vətən müdafiəçiləri üçün yataqxana və yeməkxanalarda yaradılan şəraitdən çox danışmışıq. Bu dəfəki mövzumuzu hərbi qulluqçuların gündəlik fəaliyyətini fasiləsiz və düzgün təşkil etməsi üçün əlindən gələni əsirgəməyən və görünməyən zəhmətkeş işçilərimizə həsr edirik. Əvvəlcə hərbi hissənin qazanxanasında olduq. Qazanxana operatoru Elməddin Məmmədov bizimlə söhbət əsnasında bildirdi ki, bu işə cavabdeh şəxsin qarşısında duran əsas məsələlər - bütün qazanxana avadanlıqları və istilik sistemlərinin qəzasız işləməsi və işlək vəziyyətdə olması, buxar və suqızdıran qazanların texniki saz vəziyyətdə saxlanılmasıdır. "Bundan başqa, qazanxanada texniki istehsalat, texniki təhlükəsizlik və yanğın təhlükəsizliyi qaydaları ilə ciddi nəzarətdə saxlanılmalı, müxtəlif cihaz və avadanlıqlar düzgün, təlimata uyğun istismar olunmalıdır. Hərbi hissənin daxilində istilik sisteminin, işçi və şəxsi heyətin gündəlik fəaliyyətinin təşkili üçün qazanxana işçilərinin də üzərinə böyük vəzifə düşür. Yataqxanalarda istilik sistemləri, yeməkxanada qızdırıcı sistemlər, şəxsi heyətin hamam və camaşırxanasında müxtəlif fəaliyyətlərin düzgün təşkil olunmasında qazanxanalar birbaşa iştirak edir".




Daha sonra hərbi hissənin camaşırxanasında görülən işlərlə tanış olduq. İlk öncə Nemət Mustafayev buradakı fəaliyyətlə bağlı bizi məlumatlandırdı. "Tam avtomatlaşdırılmış camaşırxanamızda təşkil olunan fəaliyyət günün nizam qaydalarına uyğun və dövrümüzün müasir standartları çərçivəsində aparılır. Kollektivin təcrübəli mülki işçilərinin öz vəzifəsinin incəliklərinə dərindən yiyələnməsi görülən işin operativliyini təmin edir.

Camaşırxana bir neçə otaqdan ibarətdir və hər otaqda mülki işçilərimiz aidiyyəti üzrə üzərinə düşən vəzifələri icra edirlər. Müxtəlif otaqlar üzrə çirkli camaşırların qəbulu və çeşidlənməsi (geyim, yataq ağları, əl-üz və ayaq dəsmalları), yuyulması və təmizlənməsi, qurudulması, ütülənməsi və saxlanc otaqlarında yenidən çeşidlənməsi və digər işlər görülür. Demək olar ki, müasir avadanlıqlar sayəsində əl əməyindən çox az istifadə olunur. Avtomatlaşdırılmış rejimdə çalışan avadanlıqlar buradakı işçilərimizin işinin ağırlığını xeyli azaldır. Operatorlar yaradılan şəraitdən çox məmnundurlar və Vətən müdafiəçisi olan əsgərlərimizin hər birini özlərinə doğma övlad bilirlər".

Camaşırxana operatoru Elnarə Əsgərova gündəlik fəaliyyətlərindən danışdı: "Camaşırxanadakı avadanlıqların hər biri dünyanın inkişaf etmiş ölkələrinin istehsalıdır. Çoxfunksiyalıdır. Təbii ki, bu cihazlardan istifadənin mənimsənilməsi üçün peşəkarlar tərəfindən bizə praktiki və nəzəri biliklər öyrədilib. Kollektivimiz səmimi və işgüzardır. Hər birimiz həvəslə üzərimizə düşən vəzifəni icra edirik. Azərbaycan əsgərinin hər biri bizim doğmamızdır, əzizimizdir, bugünkü firavanlığımızın təminatçılarıdır".

Yuyucu maşınlar operatoru Əlvan Ramazanova da öz növbəsində bildirdi ki, dövlətimizin ordumuza qayğısı çox yüksəkdir və bu qayğının nəticəsi özünü ordumuzun hər bir sahəsində göstərir. "Əsgərlərimiz yüksək keyfiyyətli qida, geyim, zəruri təminat və təchizat əşyaları ilə təmin olunurlar. Azərbaycan əsgərinin üzərinə düşən əsas vəzifə isə Vətənə övladlıq borcunu layiqincə ödəməkdir. Bizlər də igid balalarımızın geyimlərinin, yataq dəstlərinin təmizliyinə cavabdehik".

Quruducu maşınlar operatoru Elmira Salahova yaradılan şəraitdən ağızdolusu danışdı. O qeyd etdi ki, əsgərlərimiz ailələrindən, evlərindən uzaq olsalar da, burada heç nədən korluq çəkmirlər. "Qoy valideynlər narahat olmasınlar, çünki Vətənin keşiyində duran əsgərlərimizə bir ana kimi xidmət göstərmək bizim analıq və vətəndaşlıq borcumuzdur".

Növbəti müsahibim ütüləyici Roza Qarayeva oldu. "Şəxsi heyətin təminat məsələləri bu gün yüksək səviyyədə təşkil olunur. Cəmiyyət və ordunun sıx əlaqəsinin göstəricisidir ki, valideynlər hərbi hissələrdə yaradılan şəraiti öz gözləri ilə görürlər. Onların simalarında xoş ovqatı görmək bizim üçün çox böyük hədiyyədir. Bizlər də valideyn olaraq, onları çox yaxşı başa düşürük. Buradan əsgər analarına səslənib bildirmək istəyirəm ki, bizlər də burada məhz əsgər övladlarımız üçün varıq".

Dərzi Nəzakət Nəsibova da Azərbaycan əsgərinin müqəddəs vəzifəsini icra etməsində pay sahibi olmaqdan məmnunluq keçirdiyini qeyd etdi. "Onların hər birini öz doğma övladımız bilirik. Qüdrətli orduya sahib müstəqil dövlətin hər bir fərdi öz əsgərinə qayğı göstərməyə borcludur. Yaxın ətrafımdan uzun illər əvvəl xidmət edənlər var, onların hər biri indiki şəraiti yüksək qiymətləndirirlər. Əsgər yalnız öz üzərinə düşən vəzifə ilə məşğuldur, təsərrüfat sahəsində isə təcrübəli mülki işçilər çalışırlar. Belə olan halda cəsur əsgərlərimiz ürəklə, böyük məsuliyyət hissi ilə xidmət edirlər".

Sonuncu müsahibim Sevinc Süleymanova da zəhmətkeş analarımızdandır. 44 günlük Vətən müharibəsi zamanı oğlu Əhmədi cəbhəyə yola salaraq, ona xeyir-duasını verib. Övladı döyüşlərdə göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə müxtəlif medallarla təltif olunub. "Azərbaycan əsgəri mərddir, cəsurdur. Onların valideynləri də məğrurdur, başıucadır. Çünki tarixən kişi qeyrətli analarımızdan bizlərə miras qalan əsas keyfiyyətlərdən biri torpaqlarımızı qətiyyətlə müdafiə etməyə qadir övladlar yetişdirmək olub. 44 günlük haqq savaşı zamanı da, atəşkəs dövründə də, Birinci Qarabağ müharibəsində də minlərlə övladımız canı ilə Vətən torpaqlarını müdafiə etdi, onun hər qarışı uğrunda özünü fəda etdi. Onların haqlarını layiqincə ödəmək üçün bu günün qəhrəmanları olan əsgər və zabitlərimizə xidmət edirik. Vətən öz igidləri ilə tanınır. Azərbaycan əsgəri hər zaman ona olan etimadını layiqincə doğruldub. İgid oğullarımızın layiqli davamçısı, günümüzün Vətən müdafiəçisi olan qəhrəman əsgərlərimizə xidmət etməkdən hər birimiz qürur duyuruq".

Burada tanış olduğumuz zəhmətkeş analarımız, Vətən əmanəti əsgərlərimizə xidmət etmənin ən böyük, şərəfli və məsuliyyətli işlərdən biri olduğunu söylədilər. Onların hər bir hərbçiyə doğma münasibət bəsləməsi, qayğı ilə yanaşması Azərbaycan xalqının öz ordusuna olan sevgisinin, inamının təzahürüdür. Belə olan halda Azərbaycan Ordusu məğlubedilməz olur. Çünki xalq-dövlət-ordu birliyi bir ölkəni bütünləşdirən elementdir. Azərbaycan 44 günlük haqq savaşı zamanı bu sınaqdan da üzüağ çıxmağı bacardı. Dünyaya nümunə olacaq tarix yazıldı. Böyük Qələbə qazanıldı, şəhidlərimizin qisası alındı, Böyük Qayıdışın təməli qoyuldu. Zamanın keşməkeşli yollarından başıuca çıxan xalqa yalnız qələbələr yaraşır.




**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Polşa ABŞ-dan raket əleyhinə müdafiə sistemi üçün 12 radar və 48 buraxılış qurğusu alır



Polşanın Müdafiə Nazirliyi ABŞ-dan "Wisla" hava və raketdən müdafiə sistemi üçün avadanlıqların və silahların tədarükünə dair müqavilə imzalayıb.

Bu barədə Polşa tərəfi Kelse şəhərində keçirilən Beynəlxalq Müdafiə Sənayesi Sərgisində sənədin imzalanmasından sonra məlumat verib.

"ABŞ tərəfi ilə bağlanmış müqavilələr çərçivəsində hərbi texnika, o cümlədən 12 LTAMDS hərtərəfli radar, 48 "PATRIOT M903" sisteminin buraxılış aparatı və PAC-3 MSE raketlərinin ehtiyatı hissələri alınacaq", - deyə bildirilib.

"Müqavilənin mövzusu həm də logistika və təlim paketləri olub. Daha sonra ABŞ hökuməti ilə IBCS sisteminin komponentləri üzrə sazişlər bağlanacaq", - məlumatda deyilir.

Qeyd edək ki, 2018-ci ildə Polşa "Wisla" raketdən müdafiə sistemi üçün "Patriot" sisteminin alınmasına dair ABŞ-la müqavilə imzalayıb. Bu proqramın iki mərhələsi Polşanın 16 buraxılış qurğusu, 208 raket, 4 radarlı radiolokasiya stansiyası almasını nəzərdə tutur. Birləşmiş Ştatlar, həmçinin Polşa komplekslərinin avtomatlaşdırılmış idarəetmə sisteminin yaradılmasını nəzərdə tutan IBCS sistemi ilə inteqrasiya olunmasına razılaşıb.

### Ukraynanın yeni müdafiə naziri təyin edilib



Ukrayna Ali Radası Oleksiy Reznikovun yerinə Rustem Umerovu yeni müdafiə naziri təyin edib.

Bu barədə Ukrayna Ali Radasının deputatı Yaroslav Jeleznyak məlumat verib.

Qeyd edək ki, bu qərarı 338 xalq deputatı dəstəkləyib.

### Ermənistan-ABŞ birgə təlimləri rəsmi Moskvada narahatlıq doğurur



Ermənistan-ABŞ birgə təlimlərinin keçirilməsi xüsusilə indiki şəraitdə narahatlıq doğurur.

Bu fikri Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə söyləyib.

O deyib ki, rəsmi Moskva xəbərləri təhlil edəcək və vəziyyəti izləyəcək.

### ABŞ Ukraynaya 600 milyon dollarlıq yeni hərbi yardım paketi ayırıb



ABŞ Ukraynaya hava hücumundan müdafiə sistemləri və döyüş sursatı daxil olmaqla 600 milyon dollarlıq yeni hərbi yardım paketi ayırıb.

Bu barədə Pentaqonun mətbuat katibinin müavini Sabrina Sinq bəyan edib.

"Bu gün Müdafiə Nazirliyi Ukraynaya Hərbi Yardım Təşəbbüsü çərçivəsində yeni hərbi yardım paketini elan edib. Bu 600 milyon dollarlıq paketə Ukraynanın hava hücumundan müdafiəsini gücləndirmək üçün avadanlıq, artilleriya döyüş sursatları və digər əşyalar daxildir", - deyə bildirib.

Pentaqonun internet saytında dərc edilmiş sertifikatdan məlum olduğu kimi, paketə, həmçinin HIMARS üçün mərmilər, 105 mm-lik mərmilər, elektron müharibə avadanlığı və minalardan təmizləmə avadanlıqları daxildir.

Pentaqon ABŞ-ın Kiyevə 2022-ci ilin fevral ayının sonundan indiyədək isə 43,7 milyard dollar ayırdığını bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

*Əsgərin tribunası*

# Əsgər olmağımla fəxr edirəm...

Müasir tələblərə cavab verən əsgər yataqxanası, yeməkxana, hamam-camaşırxana daim istifadəmizdədir. Bütün təminatların yüksək olması daima biz hərbçiləri Vətən qarşısında xidməti borcumuzu vicdanla, ləyaqətlə yerinə yetirməyə sövq edir.

Bu günlərdə Vətənə, xalqa şərəflə xidmət edəcəyimizə and içdik. Təntənəli surətdə Hərbi Andı qəbul etdik. Gənc matrosların valideyinləri, qohumları, dostları da mərasimə qatılmışdılar. Xidmətə yeni gələnlərin hər biri Vətənimizin ayrı-ayrı bölgələrindəndir. Uzaq-uzaq ellərdən gələn qonaqlar tədbirdən sonra övladlarına yaradılmış şəraitlə də yaxından tanış oldular. Mənim də valideynlərim Zaqatala rayonunun Mamrux kəndindən gəlmişdilər. Dövlətimizin hərbçilərə göstərdiyi qayğını onlar da gördülər.



***Iki aydır doğma Vətənimin müsəlləh əsgəriyəm. Ali təhsilliyəm. Bakı Mühəndislər Universitetini bitirmişəm. Hərbi Dəniz Qüvvələrində xidmət edəcəyimi heç vaxt düşünməmişdim. Belə bir qoşun növündə əsgər olmaqdan qürur duyuram. Xidmətə gəldiyim ilk gündən zabitlərin, miçmanların xoş rəftarı biz gənc matroslara xoş ovqat aşılayır.***

Qeyd edim ki, mənim və mənimlə bir yerdə xidmət edən matrosların üzərinə böyük məsuliyyət düşür. Hər şeydən əvvəl biz komandirlərin öyrətdiyi hərbi bilikləri, hərbi nizamnamələrin tələblərini vicdanla öyrənib əməl etməliyik. Hərbi xidmətə gəldiyim ilk gündən qarşıma məqsəd qoymuşam ki, bir matros kimi komandirlərin öyrətdiyi bilik və bacarıqları mükəmməl mənimsəyəcəm. Xəzər dənizində dövlət sərhədlərinin müdafiə və mühafizəsində ayıq-sayıq dayanacaq, Vətən qarşısındakı övladlıq borcumu ləyaqətlə yerinə yetirəcəyəm.

Əminliklə deyirəm ki, xidmətimi vicdanla, şərəflə başa vurub doğmalarımın yanına alnıaçıq, üzüağ qayıdacam.

**Matros**
**Rüfət RAMAZANOV**
**"N" hərbi hissəsi**

# "Aqşin! Sən bu ömrü Vətən üçün yaşadın!"

***Şəhid mayor İbadov Aqşin Nazim oğlu 1984-cü il avqustun 24-də Lənkəran rayonunun Boladi kəndində anadan olub. 19 oktyabr 2020-ci ildə Xocavəndin Tuğ kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub. Lənkəran rayon Boladi kənd qəbiristanlığında dəfn olunub. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Rəşadət" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub. Aqşinin ev muzeyində olarkən stendlərdə "Xilaskar" təxəllüsü ilə yazılan misralar diqqətimi çəkdi. Öyrəndik ki, "Xilaskar" təxəllüsü ilə hisslərini nəzmə köçürən torpaqlarımızın işğaldan azad olunması uğrunda canını qurban verən Aqşin İbadov imiş. Hətta məzar daşı üzərində yazılan misraları da özü qələmə alıb. "Xilaskar"ın şeirlərini təqdim edirik.***

**"Azərbaycan Ordusu"**

Səmada parlayır payız günəşi,
Dilimdən qəmli bir nəğmə süzülür.
Çöllərdə bulaqlar, çaylar çağlayır,
Sanki təbiətə sədəf düzülür.

Parlayan günəşdən çıxan ulduz tək,
Kədərlə, sevinclə döyünür ürək.
İnsanı qəribə hisslər bürüyür,
Sevincli anlarda öyünür ürək.

İnsanda məhəbbət, sevgidə nifrət,
Müvəqqəti olur çıxan günəş tək.
Vətənə məhəbbət, düşmənə nifrət,
Əbədi yaşayır sonsuz səma tək.

* * *

Bizləri səsləyir Dağlıq Qarabağ,
O doğma torpaqlar, qarlı zirvələr.
İgid ərənləri cəngə səsləyir,
Aqşin bu torpaqlar sənə əmanət.
Ulu babaların yadigarıdır.
Azəri əsgəri etməz xəyanət.
Məğrur, cəsarətli, etibarlıdır.

* * *

Səmadan çöllərə gur işıq dolur,
Sanki insan oğlu qol-qanad açır.
Bu dolğun işıqdan qaranlıq solur,
Elə bil kədər, qəm məndən gen qaçır.

Baxıram torpağa, baxıram aya,
Ruhum qanadlanır, fikrim canlanır.
Baxıram kainat, ulduzlar və ay,
Sanki səslənirlər: "ulduzları say".

Bu soyuq, işıqlı, ayazlı gecə,
Üşüdür cismimi sakit xəlvətcə.
Görünür üfüqdə işıqlı səhər,
Sanki ulduzlar da yerə eniblər.

* * *

Cavan ömrüm bu dağlarda gedibdir,
Mən bu ömrü kimin üçün yaşadım?
Həyat qısa, ömür qısa, gün qısa
Mən bu ömrü sənin üçün yaşadım.

Həyat ömrü, ömür günü qovubdu,
Övlad şəhid, ana gözün ovubdu.
Gözü yaşlı, sinəsi dağlı ana,
Mən bu ömrü sənin üçün yaşadım.

Anaların gözləri yollardadı,
Vətən dərdi, oğul dərdi çəkirlər.
İgid oğul vur düşməni gözündən,
Aqşin! Sən bu ömrü Vətən üçün yaşadın!

* * *

Üzünü örtəndə qar bu dağların
Ucalır harayı mərd oğulların,
Külək sovuranda qarı havaya,
Oyanır qəlbində dərd oğulların.

Çerçi bazarının uçqunlarında
Döyüş mövqeləri yaradıb insan
Təbiət insanı imtahan edir,
İnsan təbiəti pərişan edir.

Birləşdi Vətənin mərd oğulları,
Yol aldı dağların sərt zirvəsinə.
Çətin sınaqlara dözüb birtəhər,
Yetişdir ünvana yorğun sərasər.

Gəlib yetişəndə uca zirvəyə
Gördülər insanlar qışa dağ çəkir.
Gecənin küləyi, çovğunu, qarı,
Səslənir qapıda, pəncərələrdə.

Səhər açılanda hər tərəf, hər yan,
Ağappaq ağarıb süd gölü kimi.
Sanki yer üzündə hər tərəf, hər yan
Pambıq tarlasıdır, məhsulu boldur.

Doldur silah dostum, doldur badəni,
Doldur biz yad edək ötüb keçəni.
Çiynimi çiyninə söykədiklərim
Şəhadət yolunda gözlədiklərim.

İçək bu badəni Vətən eşqinə,
Ey fədakar əsgər sənin eşqinə.
Alınsın Qarabağ, basılsın düşmən,
Qələbə eşqinə, qalib eşqinə!!!

* * *

Dilə gəldi telli sazım,
Deyir yenə şeir yazım.
Nədən deyim, nədən yazım,
Bu gün yenə Vətən yazım.

Yazım yenə olanları,
Yarpaq kimi solanları.
Yazan əlim qurumasın,
Qurusa da, dil, dodağım.

Zaman gələr, hesab dönər,
Namərd əldə, çıraq sönər.
Silahlansa igidlərim,
Düşmən qorxub geri dönər.

Haray çəksəm zirvələrə,
Neçə qartal qanad saxlar,
Səsim çatsa bu ellərə,
Ellər mənə dastan yazar.

* * *

Qocaldır insanı qocaldır zaman,
Oxunu atarkən dartınır kaman.
Darıxır ürəyim, darıxır yaman,
Nədən gileylənir insanlar aman!

# İdman

## Savat üzrə Azərbaycan millisi Avropa çempionatında 4 medal qazanıb



Xorvatiyanın Zaqreb şəhərində savat idman növünün (fransız əlbəyaxa milli idman növü) assault növü üzrə Avropa çempionatı keçirilib.

Gənclər və İdman Nazirliyinin təqvim planına uyğun olaraq, milli komandamız da bu yarışda 6 idmançı ilə təmsil olunub.

Qadınların yarışında Tutu İsmayılova (48 kiloqram), kişilərin yarışında Seymur Şahbazov (56 kiloqram), Həsən Əliyev (60 kiloqram), Ağadədə Əliyev (70 kiloqram), Beyrək Bağırov (75 kiloqram) və Sənan Babazadə (80 kiloqram) mübarizə aparıb.

Federasiya prezidenti Rafiq Əliyev və yığmanın baş məşqçisi Taleh Nağızadənin rəhbərlik etdiyi kollektiv 4 medal qazanıb.

Seymur Şahbazov gümüş, Tutu İsmayılova, Həsən Əliyev və Sənan Babazadə isə bürünc medala layiq görüblər.

## Azərbaycan-Belçika oyununu idarə edəcək hakimlər müəyyənləşib

AVRO-2024-ün seçmə mərhələsində keçiriləcək Azərbaycan-Belçika oyununu idarə edəcək hakimlər açıqlanıb.

Qarşılaşma Serbiyadan olan hakimlər briqadasına həvalə olunub. Referi Nenad Minakoviçə yan xətt hakimləri Slobodan Pavloviç və Nikola Boroviç kömək edəcəklər. Dördüncü hakim funksiyasını isə Milan Mitiç yerinə yetirəcək.

VAR hakimi Novak Simoviç, onun köməkçisi isə Momçilo Markoviç olacaq.

Qeyd edək ki, sentyabrın 9-da "Dalğa Arena"da keçiriləcək Azərbaycan-Belçika oyunu saat 17:00-da başlayacaq.

## Cüdoçularımız Avropa çempionatının ilk günündə 3 medal qazanıblar




Azərbaycan cüdoçuları Niderlandın Haaqa şəhərində gənclər arasında keçirilən Avropa çempionatına uğurlu başlayıblar.

Yarışın ilk günündə milli komandamızın 7 üzvü medallar uğrunda mübarizə aparıb.

Oğlanlar arasında 60 kiloqram çəkidə yarışan Nizami İmranov bütün rəqiblərini məğlub edərək finala yüksəlib. O, həlledici görüşdə İsrail təmsilçisi Yehonatan Vekslerə "wazaari" xalı ilə qalib gələrək qızıl medal qazanıb.

66 kiloqram çəki dərəcəsində çıxış edən Aydın Rzayev final qarşılaşmasında gürcüstanlı Tenqo Zirakaşviliyə uduzaraq gümüş medalla kifayətlənib.

Qızlar arasında isə 52 kiloqramda mübarizə aparan Aydan Vəliyeva isə üçüncü yer uğurunda görüşdə İtaliya təmsilçisi Mikaela Şakovelli ilə qarşılaşıb. "Qızıl xal" bölümünün üçüncü dəqiqəsində rəqibinə ipponla qalib gələn idmançı bürünc medala sahib çıxıb.

## "Əl İttihad" "Liverpul"a Məhəmməd Salah üçün rekord məbləğ təklif edir



Səudiyyə klubu "Əl İttihad"ın rəsmiləri məşhur misirli futbolçu Məhəmməd Salahı transfer etmək üçün Böyük Britaniyaya gəliblər.

Bu barədə "The Sun" məlumat yayıb. Bildirilir ki, Səudiyyə Ərəbistanının çempionu "Əl-İttihad" "Liverpul"un ulduzu Məhəmməd Salah üçün rekord məbləğ - 270 milyon dollar təklif edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Novruzov Azad Ziyad oğluna məxsus AD № 0037278 nömrəli və əsgər Mənəfov Bəhruz Saday oğluna məxsus AD № 0059853 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Hüsniyyə NƏSİROVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 521
Nüsxə 4760